

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 54-55 (7103-7104) ❀ Şənbə, 20 iyul 2013-cü il ❀ Qəzet ayda 4 dəfə çıxır ❀ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Fransua Ollanda ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

❀ ❀ ❀

Dövlətimizin başçısı İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.

Xarici işlər naziri Əhməd Davudoğlu Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını və Ramazan bayramı münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırmışdır.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişaf etdiyi vurğulanmış, bu münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunmuşdur.

❀ ❀ ❀

Prezident İlham Əliyev İsveçrənin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Paskal Obişerin etimadnaməsini qəbul etmişdir.

Təqdimat mərasimində Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında ikitərəfli münasibətlərin sürətli və uğurlu inkişafından məmnunluq ifadə olunmuş, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin önəmi qeyd edilmişdir. Söhbət zamanı habelə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, qarşılıqlı sərmayə qoyuluşu, mədəniyyət, təhsil, səhiyyə, idman və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

❀ ❀ ❀

Azərbaycan Respublikasının Prezidentii İlham Əliyev Siyəzən rayonuna səfəri çərçivəsində bir sıra obyektlərin açılış mərasimində iştirak etmişdir.

❀ ❀ ❀

Dövlətimizin başçısı İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Herbert Kvelleni diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

**Miri RƏHİMOV.**

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Dövlət başçısı iclası giriş nitqi ilə açdı **(nitq mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur)**.

Ölkə başçısı qeyd etmişdir ki, ilin altı ayı çox müsbət keçib, göstəricilər çox müsbətdir. Bu altı ayda Azərbaycan dinamik inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub. Bu göstəricilər deməyə əsas verir ki, müsbət dinamika ilin sonuna qədər də qorunacaqdır. Ən əsas iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanda iqtisadi artım bu il də dünya miqyasında nümunə ola bilər. Ümumi daxili məhsul 5 faiz artmışdır və ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz təxminən 11 faiz artmışdır. Bu, son illər ərzində Azərbaycanda görülmüş işlərin, düzgün aparılan iqtisadi islahatların nəticəsidir. Bu göstəricilər, deyə bilərəm ki, dünya miqyasında ən yüksək səviyyədədir.



İlin birinci yarısında ölkə iqtisadiyyatına 12,6 milyard dollar sərmayə qoyulmuşdur. Bunun 7 milyard dolları daxili sərmayədir. Cənab Prezident qeyd etmişdir ki, bu yaxşı nəticədir.Əgər biz bu tempi saxlaya bilsək ilin sonuna qədər sərmayələrin səviyyəsi təqribən 25 milyard dollara çatacaqdır. Keçən il isə bu göstərici 20 milyard dollardan çox olmuşdur.

Azərbaycanın maddi imkanları valyuta etiyatları da artır. Valyuta ehtiyatları artıq 48 milyard dollardan çoxdur. Bu göstəriciyə görə də—həm mütləq rəqəmləri, həm də adambaşına düşən valyuta ehtiyatlarının həcmini götürsək—Azərbaycan dünya miqyasında qabaqcıl yerdədir. Dünya birliyi bunu görür və yüksək qiymətləndirir. Digər tərəfdən Azərbaycanda əsaslı islahatlar güclü sosial siyasətlə tamamlanır. Ötən 6 ayda əhalinin gəlirləri 7 faizdən çox artmışdır. İnfilyasiya isə 2 faiz olmuşdur. Maaşlar da artıb. Ölkədə orta əməkhaqqı 520 dollar səviyyəsindədir. Orta pensiya 200 dollardır. Gələn illərdə bu rəqəmlər artacaqdır. Bu rübdə vətəndaşların pensiyalarının da, əməkhaqlarının da artması gözlənilir. Ümumiyyətlə qeyd edilmişdir ki, iqtisadi islahatlar çox güclü sosial siyasətlə dəstəklənir.

Prezidentin regionlara mütəmadi səfərləri nəticəsində regional sosial- iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş məsələlər öz həllini tapır. Bütün bölgələrdə, bütün rayonlarda çox ciddi inkişaf gedir, canlanma çox gözəl əhval-ruhiyyə yaradır. Bu ilin əvvəlinə işsizliyin səviyyəsi 5 faizdən bir qədər çox idi. İlin sonuna bu rəqəm daha da azalacaqdır. Lakin bü göstərici istənilən ölkə üçün arzu olunan rəqəmdir. Lakin bu bir həqiqətdir ki, 5 faiz işsizlik səviyyəsi istənilən ölkə üçün arzu olunan rəqəmdir. Bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 10, 15 hətta 25 faizdir. Son 10 ildə Azərbaycanda 1 milyon 180 min yeni iş yeri açılmışdır. Bu ilin altı ayında 55 min iş yeri yaradılmışdır. Onların 45 mini daimi iş yeridir. Proses davam edir.

Regional inkişaf üzrə ikinci Dövlət Proqramı bu il başa çatır. Bu proqram artıqlaması ilə yerinə yetirilib. Eyni zamanda, «Bakının və ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı» Dövlət Proqramı icra edilir. Bu proqram nəticəsində Bakıətrafı qəsəbələrdə çox böyük işlər görülür.

Ölkə başçısı nitqində Azərbaycanın, Bakının dünya miqyasında bir siyasi, iqtisadi, mədəni mərkəzə çevrilməsindən, xarici siyasətlə bağlı həyata keçirilən tədbirlərdən və digər məsələlərdən də danışmışdır.

Cənab Prezidentin giriş nitqindən sonra ilin birinci altı ayında görülən işlərin yekunları ilə bağlı müzakirələr olmuşdur. Müzakirələr zamanı maliyyə naziri Samir Şərifov, kənd təsərrüfatı naziri İsmət Abasov, nəqliyyat naziri Ziya Məmmədov çıxış etmişlər.

Sonda Azərbaycan Prezidenti İlham Əliyev geniş yekun nitqi söyləmişdir. Cənab Prezident nitqində ilin ikinci yarısında qarşıda duran ən mühüm məsələlərdən danışmışdır.